# BİR ŞƏHİD, BİR HEKAYƏ, BİR ŞEİR







20 sentyabr 2025-ci ildə Türkiyə və Azərbaycan yazarlarının birgə ərsəyə gətirdikləri "Bir şəhid, bir hekayə, bir şeir" kitabının möhtəşəm təqdimat mərasimi keçirildi. Tədbirdə Şəhid qardaşım Səid Cəfərovun dəyərli ailə üzvləri Könül ana və Aygün bacı ilə birlikdə iştirak etmək məni həm sevinc, həm də qürur hissinə qərq etdi. Tədbirdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndələri, Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin nümayəndələri, bir çox mədəniyyət və incəsənət xadimləri, ziyalılar, Şəhid ailələri iştirak etdilər. Tədbirdə çıxış edənlər, o cümlədən Türkiyədən gələn yazarlar - İbrahim Şaşma, Ebru Eroğlu, Yaren Atalar, Kevser Dostagüler və Hatice Opak Bilgin çox gözəl və dəyərli çıxışlar etdilər və gözəl sözlər söylədilər. Bu dəyərli layihə və təqdimat üçün başda layihənin Azərbaycan üzrə koordinatorları İlhamə xanım Müslümovaya və Namiq bəy Müslümova, layihə rəhbəri Harun bəy Yıldırıma və əməyi keçən hər kəsə dərin təşəkkürümü bildirirəm.

Onu da qeyd edim ki, kitabda Vətən müharibəsi Şəhidi Səid Cəfərova həsr etdiyim "Zəfərin oğlu" adlı yeni hekayəm ilə iştirak edirdim.










Allah bütün Şəhidlərimizə rəhmət eləsin! Allah Azərbaycan-Türkiyə qardaşlığını daim etsin! Amin!

İndi isə tədbir haqqında geniş məlumatı nəzərinizə çatdırıram: "20 sentyabr tarixində Bakı şəhəri, "Badamdar Hotel And Residences"də türkiyəli və azərbaycanlı yazarların birgə ərsəyə gətirdikləri "1 şəhid, 1 hekayə, 1 şeir" kitabının 4-cü cildinin təqdimat mərasimi keçirilib. Kitabda 62 azərbaycanlı şəhidin həyat hekayələri və onlara həsr edilmiş şeirlər qələmə alınıb. Tədbirdə Türkiyə və Azərbaycan yazarları ilə bərabər, kitabda yer alan şəhidlərin ailə üzvləri, Azərbaycan Respublikası Müdafiə Nazirliyindən və Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyindən nümayəndə heyəti, bədii incəsənət ustaları və media nümayəndələri iştirak ediblər.

Tədbirdə ilk öncə layihənin Azərbaycan üzrə koordinatorları İlhamə Müslümova və Namiq Müslümov layihə barədə iştirakçıları məlumatlandıraraq bildiriblər ki, 5 il əvvəl türkiyəli yazar Harun Yıldırım tərəfindən başladılan bu layihənin ilk 3 cildi Türkiyə şəhidlərinə, 4-cü cildi isə Azərbaycan şəhidlərinə həsr edilib. Bu ilin yanvar ayında başladıqları layihənin ərsəyə gəlməsində layihə rəhbəri Harun Yıldırıma, türkiyəli və azərbaycanlı yazarlara, ələlxüsus da maddi dəstək verən Birinci Qarabağ Müharibəsi Qazisi Anar Əliyevə təşəkkürlərini bildirən koordinatorlar daha sonra qeyd ediblər ki, bu kitablar pulsuzdur və şəhidlərin ailələrinə, təhsil aldıqları orta məktəblərə, yaşadıqları rayonun, şəhərin mədəniyyət mərkəzlərinə, kitabxanalara paylanılacaq.

Sonra kitabın redaksiya heyəti üzvləri: Zemfira Məhərrəmli, İbrahim İlyaslı, Gülnarə Cəmaləddin və Mənsurə Xələfbəyli çıxış edərək, layihədə iştirak edən türkiyəli yazarlara Azərbaycan və Türkiyə arasında ədəbi əlaqələrin inkişafındakı xidmətlərinə görə plaket təqdim ediblər.

Tədbirə qatılan Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyinin, Azərbaycan Müdafiə Nazirliyinin nümayəndələri də çıxış edərək, bu gözəl layihənin həyata keçməsinə vəsilə olan hər kəsə təşəkkürlərini bildirərək, həm Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsi, həm də şəhidlərin xatirəsinin yaşadılması adına layihənin vacibliyini vurğulayıblar.

Rəsmi hissənin sonunda Azərbaycan Milli qəhrəmanı Şəhid General Polad Həşimovun anası Səmayə xanım da bütün şəhid ailələri adından təşəkkürünü bildirib.

Daha sonra tədbirin ədəbi-bədii hissəsi başlamış, Azərbaycan Respublikasının Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədovalar vətənpərvər mahnılar ifa etmiş və tanınmış qiraət ustaları kitabdakı şeirlərdən səsləndirmişlər.

Tədbirin sonunda bütün iştirakçılar çay süfrəsi arxasında söhbətlərinə davam ediblər".

***SEVİNDİK NƏSİBOĞLU***
*Milli Aviasiya Akademiyasının tələbəsi, şair-publisist, AJB üzvü*